**Korrupsiyaya qarşı mübarizədə nüvbəti addım**

Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdqi edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya» çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, bu sahədə normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi və şəffaflığın artırılması, Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədi ilə «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» təsdiq edilmişdir. Milli Fəaliyyət Planında vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması məqsədilə Vergilər Nazirliyinə 2013-2014-cü illər üzrə vergi auditinin seçim prosesinin avtomatlaşdırılması və seçim standartlarının, kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi üçün standart göstəricilər sisteminin və proqram təminatının işlənib hazırlanması, vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsinin və vergi ödəyiciləri arasında təbliğat işinin təkmilləşdirilməsi, Vergi Məcəlləsi üzrə korrupsiyaya şərait yaradan hallar üzrə risk təhlilinin aparılması, vergi bəyannamələrinin təqdim edilmə dövriliyinin azaldılması ilə bağlı təkliflərin hazırlanması tapşırılmışdır. Qarşıya qoyulan vəzfələrin icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən müvafiq Tədbirlər Planı təsdiq edilmişdir.

Tədbirlər Planında Vergilər Nazirliyinin müvafiq strukturlarına informasiya azadlığının təmin edilməsi məqsədilə daxili icra qaydalarının qəbul edilməsi və bu barədə ictimayyətin məlumatlandırılması, məsul vergi xidməti əməkdaşlarına treninqlərin keçilməsi tapşırılmışdır. Sənəddə vergi orqanlarının fəaliyyəti barədə məlumatların mütəmadi yenilənmiş formada internet səhifələrində yerləşdirilməsi, Vergilər Nazirliyinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının sadə dildə yazılmış versiyası, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi öz əksini tapmışdır. Vergilər Nazirliyinin rəsmi internet saytında dövlət proqramlarının icrası barədə məlumatların yerləşdirilməsi üçün ayrıca bölmənin yaradılması da nəzərdə tutulur. Vergilər Nazirliyinin müvafiq strukturlarına vergi qanunvericiliyi ilə bağlı qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və əməkdaşlıq şəbəkələrinin yaradılması tapşırılmışdır. Bu istiqamətdə «Vergi dostları» şəbəkəsinin genişləndirilməsi, «Açıq qapı» forumlarının keçirilməsi nəzərdə tutulur. Bunlarla yanaşı, ictimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, eləcə də nazirliyin «Facebook» və digər sosial şəbəkələrdəki səhifələrindən istifadə edilməsinin zəruri olduğu bildirilir. Tədbirlər Planında nəzərdə tutulan vəzifələrdən biri də elektron xidmətlərin təkmilləşdirilməsidir. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflğın artırılması məqsədilə Vergilər Nazirliyinin müvafiq strukturlarına vergi nəzarəti tədbirləri haqqında təhlillərin və statistik məlumatların mütəmadi olaraq mətbuatda dərc olunmasını təmin etmək, maliyyə nəzarətində informasiya texnologiyalarını tətbiq etmək, maliyyə və elektron nəzarət sisteminin yaradılmasında iştirak etmək tapşırılmışdır. Qeyd edilmişdir ki, vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması üçün vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun «Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında» kodeksinə uyğunlaşdırılması sahəsində ardıcıl tədbirlər görülməlidir.

Onu da bildirək ki, vətəndaşların vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatları elektron formada vermələri üçün Vergilər Nazirliyinin rəsmi saytında onlayn müraciətlər bölməsi yaradılmışdır. Bu bölmənin yaradılmasında əsas məqsəd vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi üçün vətəndaşların birbaşa daxili nəzarət strukturlarına müraciət imkanlarının genişləndirilməsindən ibarətdir. Vergilər Nazirliyinə rəsmi daxil olan müraciətlərə «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq baxılır.

Qeyd: «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın həyata keçirilməsi ilə bağlı Vergilər Nazirliyi tərəfindən görüləcək işlər üzrə Tədbirlər Planının ətraflı şərhi ilə növbəti sayımızda tanış ola bilərsiniz.

Arzu İBRAHİMOVA